**UOT 82**

# YALNIZLIĞIN BƏDİİ-ESTETİK İFADƏSI VƏ EKSPRESSİONİST YANAŞMA

*(Herman Hessenin "Yalquzaq" və Nəriman Əbdülrəhmanlının"Yalqız" romanları əsasında)*

**Vüsalə QASIMOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 14 sentyabr 2022; çapa qəbul edilmişdir: 30 oktyabr 2022; online-da çap edilmişdir: 30 dekabr 2022
Received: 14th of September, 2022; accepted: 30th of October, 2022; published online: 30th of December, 2022

**Açar sözlər:** *yalnızlıq, dualizm, ekspressionizm, assosiasiya, müqayisəli təhlil*

## Giriş

XX əsr ədəbiyyatında iki dünya müharibəsinə şahidlik, yeni ideologiyalar, silahların insanlar üzərində sınaqdan keçirilməsi kimi dəhşətli hadisələr yazıçıların əsas xammalı idi. Siyasi, ictimai və daxili böhran, şəxsiyyətin formalaşma mərhələləri, yeni dünya, yeni insan problemi estetik düşüncənin arenasına diqqət çəkirdi. Qarışıq sosial-mədəni ortamda insanın yalnızlığı ədəbiyyatın diqqətini çəkən əsas mövzulardan biri idi. "İnsan" – bir varlıq kimi fərqli sferalarda estetik təhlilə cəlb olunurdu. Ceyms Coys, Franz Kafka, Tomas Mann, Albert Kamyu və başqalarının yaradıcılığında "azad insan" konsepsiyası, "daxili mən"in fəlsəfi və psixoloji situasiyası öz bədii-estetik həllini tapırdı. "Daxili dünya"nın ekspressionist ifadəsini anlamaq üçün bədii müstəvidə müraciət edə biləcəyimiz əsərlərdən biri də Herman Hessenin "Yalquzaq" romanıdır. Müasir yazıçımız Nəriman Əbdülrəhmanlının "Yalqız" romanı da assosiativ şəklinə, ideya istiqamətinə görə "Yalquzaq" əsəri ilə səsləşir. Məqalənin məqsədi, hər iki müəllifin yaradıcılığında konsepsiya kimi seçilən "yalnızlıq" anlayışının əsasında dayanan oxşar və fərqli cəhətləri aşkar etməkdədir. Eyni zamanda, hər iki mətnin fəlsəfi, psixoloji və bədii planda müqayisəli təhlili üzərində dayanmaq, ekpressionist yanaşmanı üzə çıxarmaqdır.

## 1. Fridrex Nitşe fəlsəfəsi və Hermen Hesse ekspressionizminin sintezi

Fridrix Nitşenin fəlsəfi düşüncələri 1920-ci illərdən etibarən populyarlıq qazanır, sonrakı dönəmin fəlsəfi-estetik düşüncə tərzinin formalaşmasına ciddi təsir göstərir. *"Üstün insan ideyası Nitşe yaradıcılığında güc idarəsi adlandırdığı ağıl azadlığına əsaslanır"* (8, s. 1) onun yaradıcılığında əsas mərkəzi nöqtədə dayanır. Güc idarəsi öz ifadəsini insanın təhlil və suallarında tapırdı. Şübhəçilik və düşünərək yaşamaq F.Nitşe üçün insan təbiətinin əsas qayəsinə çevrilməli idi. Dini qanunların doqmaları şüur vasitəsi ilə yenidən araşdırılır, fəlsəfəsi ilə həyata yeni bir baxış bucağını gətirirdi. Bu düşüncə insanı nihilizmə doğru aparırdı. Lakin Nitşeyə görə, heç kimsə "üstün insan" səviyyəsinə qalxa bilməmişdir. "*Xristianlıq lap əvvəldən, mahiyyətcə və əsas etibarilə, həyata nifrət və həyatdan doymaq idi, yalnız maskalanan, yalnız gizlənən, yalnız "fərqli" və "daha yaxşı" bir həyata inamla geyindirildi"* (7, s. 53). Dinin fərqli bir şəkildə təqdimi və fəlsəfənin üstün mövqeyi

* *magistrant, Bakı Avrasiya Universiteti*
e-mail: animechuky@gmail.com

F.Nitşe dünyagörüşünün özünəməxsusluğu idi. "Fərd", "fərdiyyət", "şəxsiyyət" kimi insanı ehtiva edən anlayışların məna tutumları bir-bir izah edilir və terminoloji məzmun məişət həyatında da işləklik qazanırdı.

Ədəbi mətnlər vasitəsilə insan psixologiyasının tədqiqi, tarix boyu önəm daşımışdır. Ədəbiyyatın "insan"ı qədim dövrdən etibarən natamam mövcudluq, klassik dönəm mətnlərin də "Tanrı təhkiyəçi"nin kölgəsi, orta əsrlərdə cismani özünü dərkə yaxınlıq və nəhayət, intibahın başlaması ilə "humanist" düşüncə tərzinə keçid mərhələlərini yaşamışdır. Varlığın yaradıcı gücünün kəşfi, psixoloji cəhətdən cəmiyyətə nüfuz etməsi prosesi şəklində davam etmişdir. Dini düşüncəni "ilahi" qatından endirmək, insanı həyatın sonsuzluğu düşüncəsindən uzaqlaşdırır. Modernist, postmodernist, ekzenstialist, ekpressionist baxışlar və müharibə psixologiyası, onu fərdi sosial mühitindən uzaqlaşdıraraq, "daxili dünya"sının səsi ilə qarşılaşdırır.

Cəmiyyətdən təcrid, özünü axtarış və dualizm fəlsəfi planda insanın özünü tapması üçün çıraq funksiyasını öz üzərinə götürmüşdür. "*Zərdüşt otuz yaşı olanda vətənini, yurdunun gölünü geridə qoyub dağa çəkildi. On il ərzində dağda yorulmadan ruhunu dinlədi...*" (6, s. 5).

Anti-sosial doqmaya sahib şəxsin sosial çevrəyə inteqrasiyası Herman Hessenin "Yalquzaq" əsərində də öz uğurlu ifadəsini tapmışdır. Meşşan həyatına mənfi münasibətin təsviri ilə başlayan əsər, əsas personaj "Harri Haller"in daxilindəki dilemma üzərində dayanır. Yeni kirayənişin olaraq məskunlaşdığı otaqda, ev sahibi tərəfindən qəribə xarakterinin və həyat tərzinin aşkar edilməsi, psixoloji gərginliyini artırır. O, 25 il əvvəl gəldiyi şəhərə, on aylıq bir müddət üçün məskunlaşma qərarı alaraq yenidən qayıdır. Əsərin başlanğıc hissəsində keçmişi haqqında çox qısa məlumat verilir. Burjua cəmiyyətinin bir üzvü kimi göstərdiyi prinsipial duruşu, fəlsəfə və musiqiyə olan hədsiz marağı və ailəvi problemlər nəticəsində həyat yoldaşının onu tərk etməsi kimi səhnələr Harri Hallerin keçmişi haqqında oxucunu məlumatlandırır. Onun Mozart və Höte yaradıcılığına olan yanaşması olduqca diqqətə layiqdir. Siyasi düşüncələrinə görə cəmiyyətdən və işindən kənarlaşdırılan personaj, özünü yeniləmə prosesinə daxil olur. Əyləncə mühitində cinsi oriyentasiyası naməlum olan "Hermine" ilə qarşılaşır və cəmiyyətə keçid mərhələsinə qədəm qoyur. "Hermine" obrazının daşıdığı funksiya, oxucuya Dantenin "İlahi komediya" əsərindəki Vergilini xatırladır. O, Harri Halleri dünyəvi həzlər ilə əhatə edərək, ona rəqs etməyi və bir qadın ilə tanış olmağı məsləhət görür. "İnsani" davranışları icra etməsi, obrazın ideoloji qatının açılmasında bizə kömək edir. "Yalnız dəlilər üçündür" adlı teatra giriş, əsərin kulminasiya nöqtəsidir. Müəllif "Harri Haller" obrazı vasitəsilə, öz prototipini yaratmağa müvəffəq olur. Əsərin süjet xəttinin iyerarxik funksiya daşıması, oxucunun labirint içərisində yolunu itirməsi ehtimalını yüksəldir.

Daxili dünyanın ifadəsi olaraq dəyərləndirilən ekspressionizm "Harri" obrazının əsas çıxış nöqtəsini təşkil etməkdədir. İkili xarakter və hissiyyatla bağlı xüsusiyyətlər, onu düşünməyə və ruhunda mövcud olan səslə söhbətə dəvət edir. Güzgüdə mənəvi dünyası ilə qarşılaşan personaj kimliyi və özünü ifadəsi ilə əlaqəli qərarlar verməli olur. F.Nitşenin özünü axtarış ideyası, Herman Hesse yaradıcılığının ayrılmaz ünsürlərindən birinə çevrilmişdir. İnsanı öz daxili dünyası ilə qarşılaşdırma qərarı, Nitşe əsərlərində zaman dilimi olaraq 30 yaşlarına təsadüf edirsə, Herman Hesse romanlarının baş personajlarında 50 yaşlarında bunu görə bilirik. "*Yalquzaq əlli yaşlarında bir adam idi; Bir neçə il bundan əvvəl o, bir gün bibimin evinə gəldi, əşyalı otaq axtarırdı*" (3, s. 5). Yaş sadəcə fiziki cəhətdən götürüldüyü halda, ruh bizim mənəvi yaşımızı müəyyənləşdirir və zamanın gücünü kiçildir. Əslində hər bir kəsin keçid və inkişaf, dərk dövrləri fərqlidir. Varlıq olaraq bioloji cəhətdən eyni insanlar olsaq da, ruhi qatında şəxsiyyətə çevrilməmiş fərd, cəmiyyət içərisində varlığını təsdiq edə bilmir. Sosial mühitin əsaslı faktora sahib olması və qəbul pillələrinin vacibliyi bizə bir növ ritualı xatırladır. Bu rituala qatılmayan və ya

qatılıb sosial strukturu inkar edən biri, həyatın sabit sinxron sistemini pozmuş sayılmaqdadır. Mehmet Bayırın düşüncəsinə görə, *"Sartrın "ürəkbulanma", Kamyunun "absurd", Kierkeqorun "narahatlıq", Nitsşenin "nihilizm" adlandırdığı bu vəziyyət insanları qorxutmamalı, hərəkətdən çəkindirməməlidir"* (5, s. 23). Təbiətin bir parçası olan hər bir fərd axtarmalı, suallar verməli və cavab tapa bilməlidir.

F.Nitşe insanın daxilində təkamül edən heyvandan danışır və onun təhlükəli olmasını müsbət bir hal kimi qiymətləndirir. İnqilabın başlanğıcı olan, gücü və əzəməti təmsil edən şir, Nitşe üçün döyüşçü və igid bir mübarizdir. Dualizmin dəstəkçisi və istiqamət verənidir. Ancaq yırtıcı bir heyvanın gücü vasitəsi ilə "daxildə baş qaldıran", nəfəs ala bilməyib oranı tərk etməyə cəhd edən "insan" mənəvi və ruhi azadlığına qovuşa bilər. *"Özünə azadlıq yaratmaq və vəzifəyə belə müqəddəs bir "yox" demək: bunun üçün, qardaşlarım, şir lazımdır. Yeni dəyərlərə uyğun olmaq üçün... Yırtıcı heyvan işidir bu..."* (8, s.32).

Herman Hessenin "Yalquzaq" romanında dualizmi insan və canavar arasındadır. Hər ikisi təbiətə aid olan iki güclü heyvandan istifadə edərək baş qəhrəmanın böhranını ifadə etməyə çalışmışlar. *"Bəlkə də o, həqiqətən insan deyil, çöllərdən gələn canavar olduğunu həmişə bildiyindən, ya da ruhunun dərinliklərində bildiyini düşündüyündən belə idi"* (3, s. 40). Təbii mühitə ehtiyac duyan "heyvan" sivilizasiya və mədəniyyət kimi tərbiyəvi və əxlaqi xarakterlərə malik olan qurumlar içərisində özünü cilovlaya bilmir. İnsan bədəninə sahib olduğu üçün yadlaşma və çökmə prosesləri içərisində hər saniyə daha sürətlə tükənir. Əlbəttə, F.Nitşe ilə müqayisədə Herman Hesse insanın daxilində yeni "mən"lərini kəşf etməyə çağırırdı. Bu çağırışın əsasında dindən daha çox şəxsiyyətin inkişafı və müstəqil olaraq bərpası dururdu. Öz "məni" ilə barışıq bir şəkildə yaşamaq Herman Hessenin baş qəhrəmanı üçün bütün sözlərin və mənaların üzərində dayanmışdır.

**2. "Yalquzaq" romanında "Hermine" obrazı və arxetipik strukturu**

Hermine adı ilə əsərə daxil olan müəllif, Harri üçün güzgü funksiyasını daşımaqdadır. O, insan kimliyi ilə mübarizə aparan Yalquzaq üçün, rəhbər və bələdçi xüsusiyyətləri ilə yüklənmişdir. Qadın personaj olaraq qarşımıza çıxan və əxlaqi keyfiyyətlərdən kənarlaşdırılmış Hermine, Hessenin qələmi vasitəsi ilə yeni "dərviş" konsepsiyasına uyğunlaşdırılmışdır. "*Herminin Hallerin eynəklərini silməsi, özünü və ətrafını daha aydın görməsinə imkan verməsi onun Hallerin həyatındakı rolunun başlanğıcının konkret ifadəsi kimi şərh* edilə bilər" (2, s. 199). Herminenin ad oyunu, qadın və kişi kimliklərinə keçid etmə bacarığı, eyni zamanda "ölüm" arzusu vasitəsi ilə Yalquzağın "Canavar" olan hissəsinin məhvinə nail olması, əsərin içərisində kodlaşdırılmış gizli sxematik ünsürləri təşkil etməkdədir.

Yalquzağın "Yalnız dəlilər üçündür" başlıqlı teatra giriş hissəsində, açılan hər qapı şəxsiyyətinin özünü dərkində və fərqli "mən"ləri ilə qarşılaşmasında kulminasiya nöqtəsi sayıla bilər. Şahmat taxtası üzərində güclü oyun qurma və aparma qabiliyyəti olan müəllif, Yalquzağı öz arxetipləri ilə üz-üzə qoyur: *"İnsanın həmişə vəhdət və bütövlük ehtiva etməsi ilə bağlı o yanlış və qərəzli düşüncəni bilirsiniz. Bunu da bilirsiniz ki, insan çoxlu ruhlardan, çoxlu mənliklərdən ibarətdir"* (4, s. 187). Karl Qustav Yunqun "Dörd arxetip" əsərində "kollektiv" anlayışı ilə tanış olan hər kəs şəxsiyyətin alt qatlarında ana, ata, baba, nənə, həyat yoldaşı kimi qəlibləşmiş məna yükünün icrasına sahib olduğumuzun fərqindədir. "*Ruhda elə şeylər var idi ki, onları mən yaratmamışdım. Özlərini yaradıb həyatlarına davam etdilər. Filemon məndən kənar bir gücü simvolizə edirdi. Onunla fantaziyalarımda danışırdıq... O deyirdi ki, mən fikirlər yaradıram, amma əslində düşüncələrin meşədəki heyvanlar, otaqdakı insanlar və ya havadakı quşlar kimi olduğunu edirdi. Otaqda insanları görəndə, onları yaratdığınızı və ya onlara cavabdeh olduğunuzu düşünmürsünüz, elə deyilmi?' əlavə edərdi. Mənə mənəvi obyektivliyi və ruh həqiqətini öyrədən o idi"* (4, s. 11).

İnsanın "daxili mən"lərinin çoxluğu və onların hər birində yenidən özünü kəşf etmə

bacarığı "Harri" obrazının "Şəxsiyyətin qurulmasında rəhbərlik" başlıqlı otağa daxil olduğu hissədə aydın bir şəkildə təsvir edilmişdir. "*Adam səssiz və ağıllı barmaqları ilə mənim hissələrimi süpürdü; bütün qocaları, cavanları, uşaqları, qadınları, bütün fiqurları, şən və qəmli, güclü və incə, çevik və yöndəmsizləri qarşısına topladı və dərhal şahmat taxtasına düzüb oyun qurdu; Oyunda mənim hissələrim müxtəlif qruplar, müxtəlif ailələr, oynamaq və döyüşmək üçün qruplar, bir-birinə dost və düşmənçilik edən qruplar yaratdı*" (3, s. 185). "Harri" obrazının bütövün hissələri şəklində verilən məqsədli təsviri, həyatda qazanılan rolların və özünü maarifləndirmə psixologiyasının nümayişidir.

### 3. "Yalquzaq" və "Yalqız" romanlarının müqayisəli təhlili

Müasir Azərbaycan ədəbiyyatının nümayəndəsi Nəriman Əbdülrəhmanlının "Yalqız" romanı yalnızlıq konsepsiyasının ifadəsi baxımından maraqlı əsərdir. Əsərin süjet xətti, "daxili monoloq" vasitəsilə personajın xarakterik xüsusiyyətlərinin ekspressionist ifadəsi əsasında formalaşır. Əsas personajın özünü tənqid etmə cəhdləri ifrat dərəcəyə çatır. Çəkingənlik, utancaqlıq, özünü günahlandırma, anti-sosial mövqe personajın pessimist düşüncə planında təsvirinə şərait yaratmışdır. Əsərdə nəzərə çarpan əsas məqamlar, xəstəliyin simvolik təqdimatı, ana həsrəti, digər şəxslərin naməlum planda təsviri və bədbin sondur. Romanın əsas mətni "Yalqız"ın borc almaq məqsədilə ziyarət etdiyi şəxsin monoloqu ilə başlayır. "Yalqız" çəkingən və həssas təbiətli biri kimi təqdim edilir. Əsər boyu oxucu personajın daxili təlatümlərinə şahidlik edir. Qeyri-qanuni münasibətlər, yalanın normallaşdırılması, dünyəvi müstəvidən uzaqlaşmış şüurun mövcudluğu əsərə xaotiklik qatan hissələrdir.

Süjet xəttini dinamiklik qazandığı məqamlardan biri kitab mağazasının təsvir edildiyi səhnədir. "Yalqız" kitabsevər biri olduğu halda, maddi imkanı sosial tələbatlarını ödəmək baxımından yetərsizdir. Dünyəvi tələbatlara malik hər hansı bir fərdin, idealist düşüncələrindən uzaqlaşmaq məcburiyyətində qalması real mühitə qayıdışı ilə nəticələnir. Platonik sevginin təqdimatı fonunda, əsərin baş qəhrəmanı öz həyat tarixçəsinin yazıldığı kitabı rəfdən götürür və oxumağa başlayır. Ev mühiti və hadisələrin monoton sistemdə irəliləməsi, personajın depressiv ruhi vəziyyətinin təsviri üçün məqsədə uyğun tərz də seçilmişdir. Bu əsər də "yalnızlıq" konsepsiyası Herman Hessenin "Yalquzaq" əsəri ilə assosiativ əlaqəyə girə bilir. Hər iki əsər eyni ideya əsasında qurulsa da, əsərin süjet və dinamikasında fərqliliklər nəzərə çarpmaqdadır. Əvvəla, Herman Hesse personajlarını adlandırdığı halda, Nəriman Əbdülrəhmanlı onlara müəyyən vəzifələr verməklə kifayətlənir. Obrazları cismani aləmdən uzaqda tutaraq, məna yüklənməsinə qarşı çıxır. Adlandırma yerinə nakam dost, köhnə tanış kimi işarələyici ifadələrdən istifadə edir.

Hər iki personajın xəstə kimi təqdimi ideya-məzmun cəhətdən onların ruhi qatlarında keçirdikləri əzabla bağlıdır. "*İki saat qocalıq ağrıları içində qıvrılırdım; Mən toz şəklində dərman qəbul etdim və ağrının yox olduğunu görüb sevindim, vanna hazırladım, vannada uzandım, xoş istiliyi içimə çəkdim*" (3, s. 24).

Herman Hessenin əsərində "Harri" qut (podaqra) xəstəliyinin daşıcıyıcısıdır. Gecəyarısı şiddətli ağrının onun bədənini bürüməsi bu xəstəliyin məlum simptomlardandır. "Yalqız" romanında isə şiddətli ağrılar fərqli planda təsvir edilir. "*Amma, ardınca başlayan bel ağrılarının sancısını qəfildən duydum...*" (1, s. 81). Ağrılar sadəcə, adi soyuqdəymə olaraq izah edilir. Əsərin bütün süjet xətti boyunca baş obraz ev adlandırdığı "daxilində yaratdığı həbsxanasından" ayrıla bilmir. Herman Hesse süjet xətti vasitəsi ilə indiki zamandan istifadə etdiyi halda, Nəriman Əbdülrəhmanlı keçmişə qayıdışa önəm verir. Bu iki yazıçı şüuru arasındakı ifadə fərqlərinin yazıda təsviridir. Eyni zamanda, "Harri" personajı ilə müqayisədə "Yalqız" romanının mərkəzi personajının özünü ifadə tərzində şüur axanı texnikasından istifadə etmişdir. "Yalnızlıq" hər iki əsərdə fərqli şəkildə təqdim edilmişdir. Herman Hesse "yalnızlığı" yeni kimlik əldə etmə olaraq görür və qəhrəmanına

gülümsəmək, canlanmaq və nikbin bir şəkildə həyata qayıtmaq üçün bir şans verir. "*Edam olunmaq istəyirsiniz, başını bədəninizdən ayrılsın istəyirsiniz, ey alçaq döyüşçü! Bu axmaq ideal üçün daha on qətl törədərdiniz. Ölmək istəyirsiniz qorxaq, yaşamaq yox. Lənət olsun, indi yaşayacaqsınız! Ən ağır cəzaya layiqsiniz"* (3, s. 209). Müəllif "Yalquzaq" içərisindən sosial varlıq olan insanı cəmiyyətə qaytarır. Onu gülmək və yaşamaqla cəzalandırır.

Lakin Nəriman Əbdülrəhmanlı oxucunu bədbin sonluğa hazırlayaraq, baş qəhrəmanını ümidsiz bir həyatdan xilas etmək üçün, çıxış yolu olaraq "ölümü" təklif edir. "*kətili çilçırağın altına çəkib, üstünə çıxmaq, çatının bir ucunu çilçırağa bağlayıb, o biri ucunu ilgək eləmək, ilgəyi boğazıma keçirib, bir anlığa gözlərimi yummaq, yazıq anamın üzünü yadıma salıb, onu da, özümü də yarıda bilmədiyimə görə, üzr diləmək, axırda dərindən nəfəs alıb, ayağımla kətili itələməkdi;"* (1, s. 143).

Bədii-estetik təqdimatın ifadə şəkli, oxucu üçün məzmunu açan vasitədir. Böhranın nə ilə nəticələndiyini görmək, oxucu şüurunda müəyyən təsvirlərin canlanmasına səbəb olur. Fərqli və daha nikbin bir sonluğun axtarışına keçid, insanların konfutsi fəlsəfi düşüncəsinə yaxınlaşması ilə nəticələnir. Dünyəvi reallığı qəbul edə bilməyən fərd, idealist təxəyyül tərzini mənimsəyir. Həyata pozitiv baxış, xaotik reallığın varlığını kölgələmək üçün seçilən əsas üsullardan birinə çevrilir.

**Nəticə**

Son olaraq bunu qeyd edə bilərik ki, yadlaşma və özünü ifadə etmə meyli "Yalquzaq" və "Yalqız" romanlarının ideoloji konsepsiyasının ana xətlərini təşkil etməkdədir. Daxili böhranın ekspressionist üslubla təsviri, hər iki əsərə səciyyəvi çalar qazandıran əsas cəhətlərdən biridir. Herman Hesse "Harri" vasitəsilə dünya ədəbiyyatına təsir göstərmiş və Şərq ədəbiyyatında "Yalqız" romanın yazılmasında əsas qaynağa çevrilmişdir. "Yalquzaq" romanı süjet xətti etibarilə daha sürreal ifadə biçiminə söykəndiyi halda, "Yalqız" əsərində hadisələrin təsviri realist plana malikdir. Hər iki əsər üzərində aparılan müqayisəli təhlil, müəllif şüurunun subyektiv keyfiyyətlərinin vizual təsvirindən ibarətdir.

**ƏDƏBİYYAT**

1. Nəriman, Əbdülrəhmanlı. Yalqız. Bakı: Qanun nəşriyyatı, 2006, 149 s.
2. Ayşe, Demirel. Herman Hessenin Romanlarındaki Kadın Portreleri. Doktora Tezi, Sakarya Üniversitesi, 2016, 326 s.
3. Herman, Hesse. Bozkırkurdu. İstanbul: Yapı Kredi Yayınları, 2003. 211 s.
4. Karl Gustav Yung. Dörd arketip. İstanbul: Metis Yayınları, 2001. 145 s.
5. Mehmet, Bayır. Nietzsche felsefesinde insan ve ahlak sorunu // Uluslararası Toplum ve Çalışmaları Dergisi, 2019, №3, s. 21-36.
6. Nietzsche, Fridrix. Böyle Buyurdu Zerdüşt. İstanbul: Sis Yayıncılık, 2015. 309 s.
7. Ницше, Фридрих. Сочинения в двух томах. Москва: Мысль. 1990, 833 с.
8. Сверхчеловек и последний человек в философии Ницше (ru.scribd.com.https://ru.scribd.com › document)

***Резюме***

***Вусаля Касумова***


***Художественно-эстетическое выражение одиночества и экспрессионистский подход***

*(По романам Германа Гессе "Степной волк" и Наримана Абдулрегманли "Одинокий")*

В статье представлена сравнительная характеристика творческого наследия Германа Гессе и Нариман Абдульрагманли. В то же время через Ницше и Карла Густава Юнга мы спускаемся в философские и психологические пласты творчества Германа Гессе.

Отражение пессимистического мышления, связанного с историческим периодом, иногда не может выйти за пределы внутреннего мира. Человек в тишине и уединении изолирует себя от общества. Когда этот процесс является длительным, он может привести к психологическому стрессу и травмирующему образу жизни. Исследование антисоциального психологического состояния и устранение причин, имеют вспомогательную роль в интеграции человека в общество. Как психолог Карл Густав Юнг пытается показать подслои, существующие в сознании человека.

Реакция на одиночество разная. В первом случае, человек живет, решает свои проблемы, наслаждается уединением. Во втором случае, он только существует, комплексуя и переживая. В творчестве Германа Гессе мы видим обсуждение одиночества и существования выхода из этого чувства. На основе сравнения романов мы знакомимся с разными и общими моментами. Два времени, две личности, два существа, две культуры помогают раскрыть дуалистический образ обоих произведений. Одной из главных поднятых проблем является критическое представление общества через личность. Представление обществом культурных норм в хаотичном плане заставляет читателя стать свидетелем одновременного присуствия негативной и позитивной среды. В то же время, идеологически оба произведения стоят в противоположном направлении философии модернизма. Замена одной истины разными истинами, стандартного необычным и централистского индивидуальным мышлением сближает произведение с постмодернистской идеологией.

Одним из основных вопросов, затронутых в работе, является философский аспект. Философский пласт мысли Ницше нашел отражение в творчестве Германа Гессе. Один из моментов, на который мы предлагаем вашему вниманию в статье, – это выражение философского пласта влияния через примеры.

Наконец, мы коснулись схожих и различных аспектов творчества обоих авторов.С воим отношением к одиночеству и тот, и другой подтвердили, что феномен одиночества, будучи объективным по содержанию, всегда субъективный по восприятию, оценке и переживанию.


**Ключевые слова:** *одиночество, дуализм, экспрессионизм, ассоциация, сравнительный анализ*

***Summary***

***Vusala Kasumova***


***Artistic and aesthetic expression of loneliness and expressionist approach***

*(Based on the novels Herman Hesse's "Steppenwolf" and Nariman Abdulrahmanli "Alone")*

The article presents a comparative description of the creative heritage of Hermann Hesse and Nariman Abdulragmanli. At the same time, through Nietzsche and Carl Gustav Jung, we descend into the philosophical and psychological layers of Hermann Hesse's work.

The reflection of the pessimistic thinking associated with the historical period sometimes cannot go beyond the inner world. A person in silence and solitude isolates himself from society. When this process is long-term, it can lead to psychological stress and a traumatic lifestyle. Investigating the anti-social psychological condition and eliminating the causes have an auxiliary role in integrating a person into society. As a psychologist, Carl Gustav Jung tries to show the sub-layers that exist in the mind of the individual

The reaction to loneliness is different. In the first case, a person lives, solves his problems, enjoys solitude. In the second case, he only exists, complexing and experiencing. In the work of Hermann Hesse, we see a discussion of loneliness and the existence of a way out of this feeling. Based on the comparison of novels, we get acquainted with different and common points. Two times, two personalities, two beings, two cultures help to reveal the dualistic image of both works. One of the main problems brought up is the critical presentation of society through the personality. The society's presentation of cultural norms in a chaotic plan causes the reader to witness the simultaneous presence of negative and positive environments.

At the same time, ideologically, both works stand in the opposite direction to the philosophy of modernism. Replacing a single truth with different truths, the standard with the unusual and the centralist with individual thinking brings the work closer to postmodernist ideology.

One of the main points raised in the work is the philosophical aspect. The philosophical layer of Nietzsche's thought is reflected in Herman Hesse's work. One of the points we bring to your attention in the article is the expression of the philosophical layer of influence through examples.

Finally, we touched on the similar and different aspects of the works of both authors. With their attitude to loneliness, both of them confirmed that the phenomenon of loneliness, being objective in content, is always subjective in perception, appreciation and experience.

**Key words:** *loneliness, dualism, expressionism, association, comparative analysis*

Məsul katib f.ü.f.d., dos. Şıxıyeva Səadət Məmməd qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.